**AZƏRBAYCAN RESPUBLİKASI**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№286/2** **31 mart 2017-ci il**

**Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri barədə**

«Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa, «Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında» Əsasnaməyə müvafiq olaraq və "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyasının (2012-2020-ci illər)" VII "Auditdə şəffaflığın artırılması, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə üzrə" bölməsinin 7-ci "Ədalətli rəqabətin təmin edilməsi və inhisarçılığa yol verilməməsi sahəsində tədbirlərin həyata keçirilməsi", 8-ci "Auditor xidmətində maraqların toqquşmasının qarşısının alınması və mövcud olan haqsız rəqabət hallarının aradan qaldırılmasına dair tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi", Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 1.21-ci "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinin təkmilləşdirilməsi" bəndlərinin icrası ilə əlaqədar olaraq, habelə auditorların müraciətlərini və Auditorlar Palatası sədrinin yanında keçirilmiş "dəyirmi masa" iclasının 2017-ci il 21 fevral tarixli iclasında (21 fevral 2017-ci il, protokol № 02) irəli sürülmüş təklifləri, mütərəqqi dünya audit təcrübəsini nəzərə almaqla, auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi, korrupsiyaya şərait yaradan hallara qarşı qabaqlayıcı tədbirlərin görülməsi, xidmət bazarında haqsız rəqabətə yol verilməməsi və sifarişçi təsərrüfat subyektlərində auditor xidmətlərinin dəyəri barədə obyektiv fikrin formalaşdırılması məqsədilə Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri barədə Dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitə (Ü.Fətiyev) tərəfindən təqdim olunmuş layihəni müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinə əməl etmələrinin təmin olunması sərbəst auditorlara və auditor təşkilatlarına tövsiyə edilsin.
3. Auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinə riayət edilməməsi sərbəst auditorlar və auditor təşkilatları tərəfindən haqsız rəqabətə şərait və risk yaradan amil kimi qiymətləndirilsin.
4. Sərbəst auditorların və auditor təşkilatlarının fəaliyyətlərinin qiymətləndirilməsi və onların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarət zamanı bu qərarın icrasına xüsusi diqqət yetirilsin.
5. "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri" barədə Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 23 dekabr 2005-ci il tarixli159/5 №-li və 2009-cu il 26 yanvar tarixli 197/6 №-li qərarları qüvvədən düşmüş hesab edilsin.
6. Bu qərar 2017-ci il 01 may tarixindən tətbiq edilsin.
7. Bu qərarın və "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri"nin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**